UOT 070

# ÜZEYİR HACIBƏYLİ PUBLİSİSTİKASINDA İCTİMAİ İDEAL

**X.A.QƏDİMOVA**
***Bakı Dövlət Universiteti***
***qadimovaxuraman@yahoo.com***

*Ədəbi-bədii yaradıcılığın və onun mühüm qollarından biri olan publisistikanın təməlində ideya dayanır. Ü.Hacıbəyli yaradıcılığında xəlqilik, millilik, realizm, ideyalılıq və s. kimi problemlər hərtərəfli şəkildə öz əksini tapmışdır. Bu ideyaların hamısının kökündə ədibin vətəndaşlıq qayəsi, vətəndaşlıq duyğusu, bir sözlə azərbaycançılıq dayanır. Yaradıcılığa təkan verən ideya sənətkarın müşahidə bacarığının məhsuludur. Üzeyir Hacıbəyli publisistikasının əsasını siyasi və sosial situasiyalar təşkil edir.*

**Açar sözlər:** ideya, publisist, cəmiyyət, əsər, Üzeyir Hacıbəyli

Bədii əsərdə olduğu kimi, publisistikada da ideya aparıcı mövqe tutur. Əgər nəzərə alsaq ki, hər şey ideyadan başlayır, onda Üzeyir Hacıbəyli publisistikasının ideya istiqaməti barədə geniş söhbət açmaq olar. Qeyd edək ki, «İdeya» yunanca «idea» sözündən olub insanın fikrində formalaşmış məqsədin gerçəkliyə çevrilməsi planı kimi başa düşülür. Heç kəsə sirr deyildir ki, ədəbi-bədii yaradıcılığın və onun mühüm qollarından biri olan publisistikanın təməlində ideya dayanır. Dini, səmavi kitabların əksəriyyətində olan «öncə söz gəldi» fikri, əslində, ideyaya bağlıdır. Söz, əslində ideyadır. «İdeya irəli sürmək çətin deyil. Lakin gerçəkləşdirmə yolları aydın təsəvvür edilən aydın ideya düşünmək o qədər də asan deyil». Üzeyir Hacıbəyli publisistikasında ideya sənətkarın həyata ictimai baxışından, vətəndaş mövqeyindən doğur. Tədqiqatçıların da xüsusi qeyd etdiyi kimi, onun yaradıcılığında xəlqilik, millilik, realizm, ideyalılıq və s. kimi problemlər hərtərəfli şəkildə öz əksini tapmışdır.

«Öz epoxasının təzə adamı» , «mənəvi dünyamızın günəşi» (2, 176) olan Üzeyir Hacıbəyli publisistikasında ideyaların hamısı ictimai məzmun kəsb edir. Poetika elminin görkəmli nümayəndəsi M.Baxtinin fikrincə, «ideyanın bədii təsvirində ya təsdiq, ya da inkar durur». Lakin bu məqamda təsdiq də, inkar da yalnız kamilliyə, cəmiyyəti, insanı mükəmməl görməyə xidmət edir. Maraqlısı budur ki, bu ideyaların hamısının kökündə ədibin vətəndaşlıq qa-

yəsi, vətəndaşlıq duyğusu dayanır. Başqa sözlə, Üzeyir Hacıbəyli ideyalarının əsasında azərbaycançılıq dayanır.

Üzeyir Hacıbəyli irsinin dəyərli tədqiqatçılarından olan filologiya elmləri doktoru, professor Abdulla Abasov doğru olaraq qeyd edir ki, «müxtəlif üslublu əsərlərdə ədib adətən görkəmli alim, güclü natiq, yüksək istedadlı publisist, məşhur sosioloq… kimi çıxış edir» (1, 44).

Bu yerdə sənətkarın müşahidəsi xüsusi rol oynayır. Əlbəttə, müşahidə ədəbi yaradıcılığın bütün sahələri üçün çox vacib komponentdir. Lakin günün aktual problemləri ilə məşğul olan publisistin fəaliyyətində müşahidə, problemləri görmək, bunu ideyadan yaradıcı gerçəkliyə çevirmək ən başlıca keyfiyyətdir. Maraqlısı budur ki, «Üzeyir Hacıbəyovun iddiası ilə imkanı arasında üzvü bir vəhdət var» (3, 285).

Azərbaycanın xalq yazıçısı Mirzə İbrahimovun Üzeyir Hacıbəylinin «Seçilmiş əsərləri»nə yazdığı «Böyük bəstəkar və yazıçı» adlı ön sözdə qeyd etdiyi kimi, «...o publisistik əsərlər daha qiymətli, daha əhəmiyyətli sayılır ki, onlar gündəlik mübarizələrdən, həyatın canlı qaynaqlarından doğan böyük problemləri əks etdirir, böyük suallara cavb verir» (2, 13). Üzeyir Hacıbəyli publisistikası məhz bu keyfiyyəti ilə daha çox seçilməkdədir.

Üzeyir Hacıbəyli publisistik əsərlərini müxtəlif imzalarla dərc etdirmişdir. Bunların içərisində «Filankəs», «Behmənkəs», «Bisavad», «Lal uşaq», «Musiqiçi» «Ü.H.», «Ü.Hacıbəyli», «Üzeyir», «Üzeyir Hacıbəyli» və bir çox digər imzalar diqqəti çəkir. Ədib həmçinin yazılarını «Ordan-burdan», «Dərədən, təpədən», «O yan, bu yan» və s. kimi sərlövhələr altında təqdim etmişdir .

Yuxarıda qeyd olunduğu kimi, Üzeyir Hacıbəylinin publisistikasında qaldırılan ideyalar bütöv bir xalqın milli taleyi ilə bağlı məsələləri ehtiva edir. Qənaətlərimizin sübutu üçün ədibin «Mərəzlərimizdən biri» adlı publisist əsərinə, daha doğrusu əsərin ideyasına diqqət yetirək. Bəhs olunan publisistik əsərin ideyası birbaşa millətin xarakteri ilə əlaqədardır. Görkəmli publisist cürətsizlik, acizlik, məzlumluq kimi milləti geri qoyan xüsusiyyətləri ustad məharəti ilə açıb göstərir. Məqalədə ideya aydın bir fabula üzərində qurulmuşdur. Müəllifin fikrincə, Azərbaycan türkünü, müsəlmanı digər millətlərdən geri qoyan onun cürətsizliyi və cürətsizlikdən doğan acizliyidir. İdeyanın bu xarakter və xüsusiyyətləri aradan qaldırmağa yönəlməsi əsərin başlıca leytmotivi kimi səslənir və müəllif tendensiyasını əks etdirir. Millətin bunu aradan qaldırması və yoluxduğu nöqsanlardan xilas olması üçün müəllif ən kəskin leksikona müraciət edir: «Dünyada ən alçaq sifətlərdən birisi, zənnimcə, cürətsizlikdir. Bu sifət çox vaxt insanın bədbəxtliyinə belə səbəb olur» (2, 25).

Qeyd edək ki, nə qədər sərt deyilsə də, bu fikir müəllifin dəqiq mövqeyini əks etdirir. Hər şey ona görə belə kəskin deyilmişdir ki, millət öz qüsurlarını dərk etsin və bundan nəticə çıxarsın.

Məhz bu kəskin yanaşmadan sonra publisist aydın bir üslubda cürətsiz millətin ürcah olduğu fəlakətləri, cürətli millətlərin uğurlarını göstərir.

Müəllifin qənaətincə, «Cürətsiz insandan yaxşı iş baş verməz», «Cürət insana qanad verər və müvəffəqiyyətini təmin etmiş kimi olar».

Üzeyir Hacıbəyli göstərir ki, «bu gün cürətli ingilislər, amerikalılar kürreyi-ərzin hər bir nöqtəsində hökmü-fərmadırlar», «biz, Rusiya müsəlmanları isə dəxi artıq bir cürət sahibi olduğumuzu meydana çıxara bilmirik; bir də cürət ölübdür» (2, 25). Publisist cürətsizliyin bizi çox geri qoyduğunu təəssüflə bildirir və göstərir ki, cürətsizlikdən doğan acizlik bizi başqa millətlərə möhtac edir. «Möhtaclıq da insanın tənəzzülünə yardım edən bir bədbəxtlikdir». Bütövlükdə yazının bütün qayəsi milləti mübariz olmağa ruhlandırmaqdan ibarətdir.

Üzeyir Hacıbəyli publisistik yazılarında «həyatın gündəlik problemlərini qrotesk üslubunda oxucuya çatdırmağın» böyük ustasıdır. Ədib əksər yazılarında sənətkarlığın bu səpkili forma və imkanlarından məharətlə istifadə etmişdir. Onun sual-cavab formasında felyetonları da çoxdur. Müəllif bu üsluba o zaman müraciət edir ki, irəli sürdüyü ideya aydın başa düşülsün. «Mühüm suallar və əhəmiyyətli cavablar» felyetonunda olduğu kimi. Qeyd edək ki, bu felyetonun poetikasında qrotesk üslubu daha qabarıq şəkildə təcəssümünü tapmışdır. Həm də xüsusi vurğulamaq vacibdir ki, «Mühüm suallar və əhəmiyyətli cavablar» felyetonu yuxarıda haqqında bəhs etdiyimiz «Mərəzlərimizdən biri» məqaləsi ilə ideyaca üst-üstə düşür. Müəllif birincidə ciddi publisist üsluba müraciət edirsə, ikincidə satirik-yumoristik, qrotesk yazı tərzinin imkanlarından bəhrələnməyə çalışır. Ancaq hər iki felyetonda milləti inkişafdan qoyan, tənəzzülə aparan milli-mental xüsusiyyətlər tənqid və ifşa hədəfi kimi seçilmişdir.

Diqqət edək:

«Sual: Biz nə üçün geridə qalmışıq?

Cavab: Çünki bizi irəli aparanlar cibləri ağırlıq etdiyinə görə yorulub yolda qalıblar…

Sual: Məktəblərimiz nə vaxt islah olunacaqdır?

Cavab: Ana dilimizi bilmərrə unudandan sonra» (2, 281).

Göründüyü kimi, birinci iki sual çox dərin mətləblərin kinayə, ironiya, istehza üslubunda qoyuluşudur. Cavablar isə o qədər kinayəlidir ki, oxuyub agah olduqdan sonra etinasız qalmaq mümkün deyil.

Felyetonun sonrakı sualları və cavabları daha kəskindir:

«Sual: Bizə nə lazımdır?

Cavab: Dinc-dinməz oturub, öz hüquq və ixtiyarını almaq üçün mübarizə edən millətlərə tamaşa etmək» (2, 281).

«Mühüm suallar və əhəmiyyətli cavablar» felyetonunda qoyulan bu cavab, əslində, milləti öz hüquq və ixtiyarı uğrunda mübarizəyə səslədiyindən oxucu marağını çəkməklə yanaşı, həmçinin sosial aktuallıq kəsb etməkdədir.

Qeyd edək ki, yaradıcılığa təkan verən ideya sənətkarın müşahidə bacarığının məhsuludur. Üzeyir Hacıbəyli publisistikasının əsasını siyasi və sosial situasiyalar təşkil edir. «Siyasi və sosial situasiyalarla qarşılaşan

publisist əsasən, bu hadisələrin təzahür nişanələrini görür» (10, 90). Bu nişanələrin yaradacağı, yaxud yaratdığı problemlər publisistin materialının ideyasına çevrilir. «Şəxsi təcrübə və müşahidə əsərin məzmununu, ideyasını müəyyənləşdirir, sosial gərginliyin, yaxud problemin ifadəsinə çevrilir» (10, 91).

Üzeyir Hacıbəylinin Rusiya Dövlət Duması, insan azadlığı, milli istiqlal, hürriyyət və s. kimi məsələlərə həsr olunmuş çoxlu sayda məqalə və felyetonu vardır. Bu məqalə və felyetonların mövzu və ideyası müəllifin şəxsi müşahidəsindən qaynaqlanmaqdadır. Publisistikanın əsas mövzu hədəfi olan siyasi məsələlər Üzeyir Hacıbəyli yaradıcılığının da ana xəttini təşkil edir.

Publisist xalqa heç nə verməyən, saxta görüntü yaradan Rusiya Dövlət Dumasını ifşa etmək ideyasını tez-tez əsərlərində qaldırır. Belə ki, «Ay ötür, gün keçir…» felyetonunun əsasında siyasi məzmun daşıyan bir neçə terminin izahı fonunda dövlət dumasının, səbatsız siyasi partiyaların cəmiyyətə baxışının ifşası dayanır. Publisist əsərin elə ilk sətirlərindən qaldırmış olduğu ideyanın nədən ibarət olduğunu açır:

«Dövlət Duması yaxınlaşır. Camaat da hazırlaşır, hökumət də hazırlaşır. Hökumət hazırlaşır ki, görsün elə bir duma qayıra bilərmi ki, axırda camaatı öz zurnası ilə oynatsın. Camaat dəxi bu kələyi əlləşir ki, görsün elə duma qura bilərmi ki, hökuməti zurnasına oynatsın. Axırda kim çalıb, kim oynayacaq, onu Allah bilir.

Ancaq bir onu demək lazımdır ki, indiyə kim biz camaat hökumətin zurnasına oynayıb, hamısının ləzzətini görmüşük. İndi Allah elə eləsin, iş elə gətirsin ki, hökumət camaatın zurnasına oynasın, görək onun ləzzəti nə cürdür. Deyilənə görə, o gərək çox dadlı olsun, çünki o zurnada çalınacaqdır: hürriyyət şikəstəsi, ədalət çahargahı və müsavat bayatı-şirazı» (2, 312).

Göründüyü kimi, əsərin bütün ideyası son cümlədəki siyasi anlayışların: hürriyyət, ədalət və müsavat sözlərinin üzərində ququlmuşdur. Əsərin sonrakı səhifələrində ədib çar Rusiyasının bir antidemokratik dövlət kimi bu anlayışlara münasibətini ifadə etmişdir. «Sənətkarın böyüklüyü ondadır ki, o, öz müasirlərindən fərqli olaraq problemləri qabaqcadan görür».

Akademik Bəkir Nəbiyev «Üzeyir Hacıbəyli-publisist» adlı məqaləsində görkəmli mütəfəkkirin publisistik irsini səciyyələndirərək yazır: «Üzeyir bəyin publisistikası ictimai həyatın irəli sürdüyü vacib problemlərə həm vaxtında, həm də çox obyektiv cavab verir, jurnalistin təbiətindəki doğruçuluq, özünə, məsləkinə qarşı tələbkarlıq onu mürəkkəb siyasi məsələlərin girdabında ilişib qalmağa qoymur, hadisələri hər şeydən öncə, məhz xalqın, onun mütərəqqi qüvvələrinin mövqeyindən çıxış edib qiymətləndirməsini təmin edirdi» .

Üzeyir Hacıbəylinin əsərlərinin böyük əksəriyyətinin ideyası əvvəlcədən, problemin hələ kifayət qədər qabarmadığı, diqqəti cəlb etmədiyi vaxtdan özünü büruzə verir. Publisist XX əsrin əvvəllərində Rusiya imperiyasının siyasi kursunu əvvəlcədən görür və bunun sonralar problemlər yaradacağını öncədən qələmə alırdı. Məsələn, Üzeyir Hacıbəyli yaxşı hiss edirdi ki, çar hökumətinin Qafqaz siyasəti laxlayan kimi erməni-müsəlman qırğını törədiləcək-

dir. Ötən yüzilin əvvəllərində publisist bu öncəgörməsini «Yalan və doğru» əsərində belə ifadə edirdi: «Hökumətin Peterburq teleqraf agentstvası Naxçıvan uyezdindən şeytan dilində bir xəbər yazıbdır:

«Fevral ayının 23-də bir dəstə müsəlman qulduru 4 nəfər gəlin aparan ermənilərin üstə tökülüb, onları öldürübdülər. Və gəlini də bihörmət edib öldürübdülər. Ermənilər bu əhvalatdan bərk həyəcana gəliblər» (2, 331).

Müəllif bu xəbərin saxta, qurama olduğunu, ermənilərin müsəlmanlara qarşı qızışdırmaq məqsədi güddüyünü sübut etmək üçün onun «şeytan dilində» yazıldığını bildirir. Və daha sonra deyir: «Ay ermənilər, siz nə bişüur tayfasınız ki, müsəlmanları qırmırsınız? Neyçün qırğın salmırsınız? Neyçün farağat oturubsunuz. Ay, bir tez qırğın salın ki, hökumətin işi pisdir, bəlkə bir az dincələ» (3, 331).

Təqdim olunan mətndə, şübhəsiz ki, «şeytan dili» dedikdə çar hökuməti nəzərdə tutulmuşdur. Xəbərin bu cür qurulması siyasi məzmun daşıyır, milli qırğın törətməklə yaranan problemləri ört-basdır etmək məramına söykənir. Üzeyir Hacıbəyli sanki xəbərin düz 80 il sonra 1980-ci illərin sonunda rus imperiyası tərəfindən yenidən gündəmə gətiriləcəyini hələ o zaman görürdü. Məlumdur ki, 1980-ci illərin sonunda süquta doğru gedən SSRİ hökuməti Dağlıq Qarabağa dair saxta xəbərlər və şaiyələr ortaya atmaqla xalqın başını qatmağa cəhd göstərdi. O zaman da «Moskovskiye novosti» qəzeti Üzeyir Hacıbəylinin qeyd etdiyi «Peterburq teleqraf agentstvası»nın xəbərlərinə istinadla saxta məlumat yaymağa cəhd göstərirdi.

«Ermənistanın (?) Qarabağ bölgəsindən müdhiş xəbərlər gəlir. Müxbirimizin verdiyi məlumata görə, burada azərbaycanlılar erməni evlərini talan edir, Şuşada qətllər törədirlər». Aydındır ki, bu tipli yalan və saxta xəbərlər milli qırğın törətmək məqsədi güdürdü. Bu mənada tarixin təkrar olunduğu, Üzeyir Hacıbəyli publisistikasında qaldırılan ideyaların yenidən gündəmə gəldiyi göz qabağındadır. Ədibin publisistikasının ideya kontekstində təhlilə çəkilməsi yaşanıla biləcək faciələrin təkrar olunmasının qarşısını almağa kömək edə bilər.

Yaradıcı şəxsiyyətlərin, böyük alimlərin əksəriyyəti hansı sahədə fəaliyyət göstərmələrindən asılı olmayaraq həmişə millətə, cəmiyyətə öz sözünü demək ehtiyacı duymuşlar. Bu ehtiyacın gerçəkləşməsi yolunda publisistika əvəzsiz vasitə kimi çıxış edir. Yaradıcı şəxsiyyətlərin əksəriyyəti bədii axtarışlarla kifayətlənməmiş, bir çox hallarda publisistika ilə xalqa üz tutmuş, yaradıcılığın bu növünü söz deməyin mükəmməl vasitəsi hesab etmişlər. Dünya təcrübəsində Sokratdan tutmuş B.Franklinədək, B.Paskaldan tutmuş T.Drayzerədək hər bir yaradıcı şəxs publisistikaya müraciət etmişdir. Azərbaycan ictimai fikir təcrübəsində Mirzə Fətəli Axundovdan tutmuş Məhəmməd Əmin Rəsulzadəyədək, Cəlil Məmmədquluzadədən tutmuş Bəxtiyar Vahabzadəyədək yaradıcı şəxsiyyətlərin hamısı publisistikaya müqəddəs yaradıcılıq növü kimi baxmışlar. Bu sırada dahi Üzeyir Hacıbəylinin də xidmətləri qeyd olunmalıdır.

Üzeyir Hacıbəyli böyük bəstəkar olduğu qədər də orijinal, bənzərsiz yazı üslubuna malik publisistdir. Bu iki sahədə göstərdiyi mükəmməl yaradıcılıq məharəti ona, sözün əsil mənasında dahi şəxsiyyət və qüdrətli qələm sahibi deməyə əsas verir. Digər dahi bəstəkar Qara Qarayevin «musiqi mədəniyyətimizin atası» adlandırdığı Üzeyir Hacıbəylinin bu «atalıq səlahiyyətinin daxili məzmunu o qədər tutumludur ki, o, yalnız musiqi mədəniyyətimizin deyil, ümumiyyətlə, müasir Azərbaycan mədəniyyətinin ağsaqqallarından biridir» (3, 261). Bu prizmadan yanaşıldıqda Üzeyir Hacıbəyli Azərbaycan mədəniyyəti tarixinə həm də böyük publisist kimi daxil olmuş və onun publisistikası bütöv bir xalqın kamilləşməsinə elə musiqisi qədər də güclü təsir göstərmişdir.

Üzeyir Hacıbəylinin istər musiqi əsərləri, istərsə də publisistikası ictimai ideyalarla yoğrulmuş, milli koloritə malikdir. Ən səciyyəvi faktdır ki, Üzeyir Hacıbəyli publisistik yaradıcılığında da Şərqə məxsus olan sənətkar idi. Akademik Firidun Köçərli göstərir ki, «Üzeyir Hacıbəyli Avropaya münasibət məsələsində öz müasirləri olan bir sıra maarifçi-demokratlardan fərqlənərək, Avropaya aludə olmur», ondan yalnız müsbət cəhətləri qəbul edir. Böyük mütəfəkkir publisistikasında cəmiyyətə demokratik dəyərləri aşılamağa çalışır, həm Şərqə, həm də Qərbə müraciətlə milli-bəşəri səciyyə daşıyan amillərə diqqət yetirirdi.

Üzeyir Hacıbəyli publisistik yaradıcılığa XX əsrin əvvəllərində başlamışdı. Bu elə bir zaman idi ki, qələm sahibindən yeni fikir, yeni düşüncə tələb edirdi. Üzeyir Hacıbəyli xalqı bu zamana uyğunlaşdırmaq, müstəqilliyə qovuşdurmaq üçün yaradıcılığın bütün növlərindən, o cümlədən publisistikanın imkanlarından bəhrələnirdi. O, Azərbaycan ədəbi-bədii, publisistik fikir tarixində fakta çevrilmiş Mirzə Ələkbər Sabir, Əlibəy Hüseynzadə, Əbdürrəhim bəy Haqverdiyev, Əhməd bəy Ağaoğlu, Məmməd Səid Ordubadi, Ömər Faiq Nemanzadə və bu qüvvələrin önündə gedən Cəlil Məmmədquluzadə kimi yaradıcı ziyalılarla, maarifçi-demokratlarla bir dövrdə sənət dünyasına gəlmişdi. «Ordan-burdan» sərlövhəsi ilə ilk felyetonlarını «Filankəs» imzası altında dərc etdirən Üzeyir Hacıbəyli ədəbi aləmdə birdən-birə parladı və bu parlaq işıq indi də sənət aləmini işıqlandırmaqdadır.

«Filankəs»in qələminin müdrikliyi, ağrısı və eyni zamanda, inamı, mübarizə əzmi, xalqın həyatına son dərəcə yaxından bələd olması, xalqın böyük problemlərini dəqiq görməsi və bu problemləri yüksək bir bədiiliklə, siyasi sayıqlıqla açıb göstərməsi, izah etməsi, gələcəyin işıqlı yollarını göstərməsi, xüsusi bir şövqə, ehtirasa, hətta bəzən çılğınlığa baxmayaraq, heç vəchlə gənclikdən xəbər verirdi» (2, 271). Xalqın nicatı yolunda fəaliyyətə başlayan «Molla Nəsrəddin» jurnalında da yazıb yaradan Üzeyir bəy «bu jurnalın silahdaşı və məslək dostu idi». Cəlil Məmmədquluzadənin ideya və amalını qeydsiz-şərtsiz qəbul edən Üzeyir Hacıbəyli Molla Nəsrəddin ədəbi məktəbinin kamil publisistlərindən biridir. Təsadüfi deyildir ki, Azərbaycan mətbuat tarixinin ciddi tədqiqatçılarından olan AMEA-nın müxbir üzvü Əziz

Mirəhmədov Üzeyir Hacıbəylini «görkəmli mollanəsrəddinçi» (7, 306) adlandırmışdır.

XX əsrin əvvəllərində mətbuat meydanında olan qabaqcıl ziyalılar Üzeyir Hacıbəylinin publisistik fəaliyyətini yetərincə qiymətləndirirdilər. Buna misal olaraq görkəmli publisist və böyük mollanəsrəddinçi Ömər Faiq Nemanzadənin «İşığımız sönməyəcəkdir» adlı məqaləsindən bir parçaya diqqət edək:

«Bu son çağlarda milli ehtiyac və diləklərimizdən ötrü yazılmaqda olan məqalələr bizim mətbuatımızda öz yoluna, öz həyatının qeydinə yavaş-yavaş düşmək istədiyini göstərən birər şahiddir. Bu şahidlərdən biri də cənab Üzeyir bəyin məqalələridir».

Qeyd edək ki, Üzeyir Hacıbəylinin publisistik fəaliyyəti milli və ədəbi ənənələrin davamı olsa da, onun özünəməxsus, bənzərsiz üslubu və dəst-xətti olduğundan qələmə aldığı əsərlər kütlələrə daha çox təsir edir, oxucu auditoriyası tərəfindən bəyənilir və əks-səda doğururdu. Görkəmli publisist Azərbaycan xalqını narahat edən çoxsaylı problemləri dərindən müşahidə edir, ümumiləşdirir və müxtəlif ədəbi formalarda geniş oxucu kütlələrinə çatdırmağa çalışırdı.

Üzeyir Hacıbəylinin publisistikasında çarizmin müstəmləkəçilik siyasəti, ermənilərin Azərbaycana qarşı torpaq iddiaları daimi mövzulardan olmuşdur. Rusiyada P.A.Stolıpinin irticasının ən qatı bir vaxtında yazdığı «Suallar və suallara da cavablar» felyetonunda «dünyada hamıdan çox hürriyyətpərvər və azadlığı sevən kimdir?» sualına böyük bir cəsarətlə: «Rusiyanın baş naziri Stolıpin və onun yoldaşlarıdır. Çünki bunların bütün əlləşib vuruşduqları odur ki, millət onların işinə qarışmayıb, azadə dolanıb, bildiklərini eləməyə xələl yetirməsinlər» cavabını verirdi. Publisist «Stolıpinin xəyalı» və bir sıra digər felyetonlarında da belə sarkazmdan istifadə ilə azadlıq düşmənlərini ifşa edirdi.

Görkəmli publisistin leksikonunda «xalq» və «hökumət» sözləri bir-birindən köklü şəkildə fərqlənirdi. Məsələn, «Atalar sözləri» adlı kiçik bir felyetonunda bunu açıq şəkildə görürük:

«Müsəlmanlarda bir misal var, deyirlər ki, ağac bar gətirdikcə başını aşağı tutar». Amma bain həmə müsəlmanlarda bir qayda vardır ki, onların «ağacları» bar gətirdikcə başlarını yuxarı tutub, ancaq hökumət qapazı dəydiyi zaman başlarını aşağı tuturlar ki, qapaz vuran «rahat» olsun».

Publisistin «Rəfiqimdən məktub» adlı bir felyetonunda «millət, millət» deyib özünü xalq qəhrəmanı kimi qələmə vermək istəyən bir nəfər yuxuda belə bu «qəhrəmanlığı» nəinki gerçəkləşdirmək istəmir, hətta «dava meydanından» qaçıb gizlənir.

Üzeyir Hacıbəyli publisistikası bir çox hallarda Cəlil Məmmədquluzadə publisistikası ilə bu və ya digər şəkildə səsləşməkdədir. Müqayisə qüsurlu olsa belə, aydınlıq üçün onların arasında bəzi paralellərin aparılmasına ehtiyac duyulmaqdadır. Üzeyir Hacıbəyli «Müəllimlərin keçmiş günlərindən» adlı

felyetonunda Cəlil Məmmədquluzadənin «Bizim obrazovannılar» əsərində qoyduğu ana dilinə nadan münasibətini özünəməxsus sarkazmla ifşa etməyə nail olur. Məlum olduğu kimi, Cəlil Məmmədquluzadə ömrü boyu Azərbaycan dilinin təmizliyi uğrunda mübarizə aparmış, özünün istər nəsrində, istər dramaturgiyasında, istərsə də publisistikasında dili korlayanlara qarşı amansız olmuşdur. «Bizim obrazovannılar» felyetonunda da «təhsilli» cavanların ana dilinə xor baxması ifşa hədəfinə çevrilir. Həmin problemlər bir qədər fərqli şəkildə Üzeyir Hacıbəylinin felyetonlarında da qaldırılmışdır.

Belə ki, Üzeyir Hacıbəyli «Müəllimlərin keçmiş günlərindən» adlı felyetonunda ana dili problemini sərt şəkildə qoyur və milli dilə etinasız «obrazovannıları» ciddi şəkildə tənqid edirdi:

« - Heç xəbərin olubmu ki, Mirzəqulu ilə nə sluçitsa oldu?

- Yox, a çto?

- Pah! Bir görəydin, direktor ona nə yaman vıqovor elədi.

- Mən ölüm?

- Yey boqu, sən öləsən…».

Göründüyü kimi, güclü sarkastik bir üslubda müəllif dilimizi korlayanları ifşa etmişdir.

Digər problemlərə münasibətdə də Cəlil Məmmədquluzadə və Üzeyir Hacıbəyli publisistikası arasında oxşar, ümumi məqamların olduğu göz qabağındadır. Üzeyir Hacıbəyli Azərbaycan xalqının problemlərini görür, onlarla yaşayır və bəzən kiçik bir ədəbi detalla həmin problemi geniş ictimaiyyətə çatdırmağa nail olurdu. Cəlil Məmmədquluzadənin «Hesab kitabı»ndakı felyetonvari üslubunu Üzeyir Hacıbəyli kiçik səhnəcikdə belə qoyurdu:

«Müəllim şagirdə: Atan var?

Şagird: Var.

Müəllim: Anan var?

Şagird:Var.

Müəllim: Neçə qardaşsınız?

Şagird: Üç.

Müəllim: Neçə bacın var?

Şagird: Beş.

Müəllim: İndi hesab elə gör sizin evdə neçə adam var?

Şagird: (bir qədər fikirləşdikdən sonra) Mirzə, on bir adam.

Müəllim: Neçün on bir oldun? Bu ki on eləyir?

Şagird: (utana-utana) Mirzə, axı dədəmin iki arvadı var» (4, 234).

Üzeyir Hacıbəylinin yaşayıb-yaratdığı mühit, o dövrün Azərbaycan reallıqları ürəyi Vətən, millət eşqi ilə çırpınan ziyalıları ictimai ideala səsləyirdi. Bu illərdə Azərbaycanın müstəqilliyi uğrunda üstüörtülü mübarizə, milli problemlərə baxış və s. məsələlərlə bağlı «ictimai-mədəni mühitin ayrı-ayrı qütbləri arasında ziddiyyət, çəkişmə nəticə etibarilə ...ayrı-ayrı sənətkarların həyatın burulğanında daha da bişib möhkəmlənməsinə, ...bədii-publisist əsərlərində ictimai idealları daha realistcəsinə əks etdirməsinə səbəb olmuşdu» (5, 266).

Eyni fikri Molla Nəsrəddin ədəbi məktəbinə və bu məktəbin ideallarına sadiqlik göstərən Üzeyir Hacıbəyli haqqında da demək olar.

İctimai ideal hər bir qüdrətli sənətkarın, yaxud qələm sahibinin söykəndiyi amillərdən biri, böyük sənətkarların isə yaradıcılıq kredosudur. İctimai ideala can atan sənətkarların altruist xarakteri olur. «Altruist xaraktersə ictimai mənafeyi öz şəxsi mənafeyindən üstün tutan insana məxsusdur» (6, 137). «Bu insan çalışır ki, hər kəs günün aktual problemlərini hiss etsin, bunların həllinə cəhd göstərməklə tarixi prosesin sürətlənməsinə kömək etsin».

Üzeyir Hacıbəyli geniş diapazona və erudisiyaya malik yaradıcı şəxsiyyətdir. Onun yaradıcılığının bütün istiqamətləri milli dəyərlərlə yoğrulmuşdur. Lakin belə bir həqiqət də vardır ki, «bütün mükəmməl sənətkarlar öz lokal yaradıcılıq sahələri ilə birlikdə, adətən publisistika ilə də məşğul olurlar». Bu xarakter, bu tələbat belə sənətkarların məhz ictimai fikrə təsir amalı ilə şərtlənir. Üzeyir Hacıbəyli də jurnalistikanı, publisistikanı bu məqsədlə seçmişdir. Hətta belə bir fikir də tamamilə mübahisəsizdir ki, «Üzeyir Hacıbəylinin zəngin jurnalistlik fəaliyyəti onun digər yaradıcılıq sahələrinə də müsbət təsir göstərmişdir… 1920-ci ilə qədər publisist Üzeyir, bəstəkar Üzeyir və yazıçı Üzeyirlə çiyin-çiyinə eyni səviyyədə inkişaf etsə də, əsrin birinci onilliyində bəzən publisist Üzeyir yazıçı və bəstəkar Üzeyiri üstələmişdir». Onun publisistikaya bu qədər diqqəti məhz ictimai ideallarin daha qabarıq ifadəsi tələbindən doğmuşdur.

Göründüyü kimi, «Öz məqalələrində xalqın taleyi ilə yaşayan Üzeyir Hacıbəyli daim xalq adından çıxış edir, felyetonlarında xalqın düşmənlərini və çar istibdadını ifşa ilə mollanəsrəddinçilərlə çiyin-çiyinə gedirdi». Onun hələ 1908-ci ildə «İrşad» qəzetində «Filankəs» imzası ilə çap etdirdiyi «Nağıl» felyetonu müstəmləkəçi çar dairələrini ciddi şəkildə narahat etmişdi. Bu felyetondan sonra Bakı qradonaçalniki, general-mayor Yermolov «İrşad» qəzetinin nəşrinin dayandırılması barədə əmr verir».

Üzeyir Hacıbəylinin publisistik fəaliyyəti onun ictimai məfkurəsinin təzahür şəkli kimi də maraq doğurmaqdadır.

Bir məsələyə də diqqət yetirilməlidir ki, Üzeyir Hacıbəylinin şəxsiyyəti ilə yaradıcılığı arasında üzvi bir vəhdət vardır ki, bu cəhət onun publisistikasındakı ictimai idealın qabarıq ifadəsini şərtləndirir. Belə ki, hər bir «əsər müəllifin bütün mənəvi aləmindən süzülüb gəlir; şəxsiyyətin böyüklüyü, paklığı, alicənablığı, ümumiyyətlə, ləyaqəti və sənət qüdrəti yaradıcılığında hökmən əks olunur. Sənətlə şəxsiyyəti bir-birindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Bu iki mühüm keyfiyyət vəhdətdə olmalıdır. Yalnız bu halda əsl mənada böyüklükdən, dahilikdən söhbət gedə bilər. Dahi Üzeyirə belə bir səadət nəsib olmuşdu». Məhz şəxsiyyətlə yaradıcılığın vəhdətdə olması Üzeyir Hacıbəylinin yaradıcılığı, o cümlədən publisistikasında ictimai idealı gücləndirən amillərdən biri kimi diqqəti çəkməkdədir.

Üzeyir Hacıbəyli publisistikasının mövzu dairəsi geniş, sənətkarlıq xüsusiyyətləri intəhasızdır. Bu publisistika müasir günlərimizdə də öz əhəmiyyətini, məktəb səviyyəsini saxlamaqdadır.

## ƏDƏBİYYAT


1. Abasov Abdulla. Üzeyir Hacıbəyovun sənətkarlığı. Bakı: Gənclik, 1976, 140 s.
2. Azərbaycan etnoqrafiyası. 3 cilddə, III c., Bakı: Şərq-Qərb, 2007, 568 s.
3. Elçin. Ədəbiyyatımızın yaradıcılıq probelmləri. Bakı: Təhsil, 1999, 564 s.
4. Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri, 2 cilddə, I cild, Bakı: Şərq-Qərb, 2005, 408 s.
5. Həbibbəyli İsa. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, 84 s.
6. Məmmədli C. Jurnalistikaya giriş. Bakı: BDU, 2007, 385 s.
7. Mirəhmədov Əziz. Azərbaycan Molla Nəsrəddini. Bakı: Azərnəşr, 1980, 430 c.
8. Nəbiyev Bəkir. Üzeyir Hacıbəyli-publisist. «Ədəbiyyat qəzeti», Bakı, 2010, 3 iyul, №26 (3725)
9. Прохоров Е.П. Публицист и действительность. М.: МГУ, 1973, 318 с.
10. Самарцев О.Р. Творческая деятельность журналиста. М.: Академический проспект, 2007, 528 с.


## ОБЩЕСТВЕННЫЙ ИДЕАЛ В ПУБЛИЦИСТИКЕ УЗЕИРА ГАДЖИБЕЙЛИ


**Х.А.КАДИМОВА**


## РЕЗЮМЕ


У истоков литературно-художественного творчества и публицистики, являющейся одним из его важных ветвей, стоит идея. В творчестве У. Гаджибейли всесторонне нашли своё отражение народность, реализм, идейность и т.п. проблемы. В корне всех этих идей стоит гражданская цель, гражданское чувство, одним словом, азербайджанизм литератора. Идея, дающая толчок творчеству, является продуктом умения наблюдать профессионала. Основу публицистики Узеира Гаджибейли составляют политические и социальные ситуации.



**Ключевые слова:** идея, публицист, общество, произведение, Узеир Гаджибейли


## IDEA IN UZEIR HAJIBEYLI'S PUBLICISM


**Kh.A.GADİMOVA**


## SUMMARY


Idea is the source of literary and artistic creativity, as well as publicism, its major branch. The works of U. Hajibeyli profoundly reflect such problems as nationality, realism, ideology etc. The root of all these ideas represents the civil goal, the civil sense, briefly Azerbaijanism. The idea, giving an impetus to creativity, is a product of the ability of watching a professional. The basis of Uzeyir Hajibeyli's publicism lies in political and social situations



**Key words:** idea, publicity, society, creature, Uzeyir Hajibeyli